**Obyektlərin qeydiyyatı və təsdiqi ilə bağlı tələb olunan sənədlər**

Subyektlərin və obyektlərin qeydiyyat üçün forması 31 dekabr 2023-cü il tarixli 2442 nömrəli Fərmanla təsdiq olunmuş ərizə ilə Agentliyin "ASAN" xidmət mərkəzlərində, kiçik və orta biznes evlərində (KOB evi) və "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyət göstərən nümayəndələrinə müraciət etməlidirlər. Bununla yanaşı, müraciət ərizələri Agentliyin e-afsa.gov.az elektron xidmətlər portalı vasitəsilə elektron qaydada tərtib edilərək avtomatlaşdırılmış rejimdə də təqdim oluna bilər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2.1–18.2.3-cü maddələrində nəzərdə tutulmuş sənədlər:

- ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;
- ərizəçi fərdi sahibkar olduqda, şəxsiyyət vəsiqəsinin surəti;
- ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;

2. ərizə səlahiyyətli nümayəndə tərəfindən verildikdə nümayəndənin səlahiyyətlərini təsdiq edən sənəd və şəxsiyyəti təsdiq edən sənədin surəti;

3. cavabdeh subyektin təsərrüfat fəaliyyətini həyata keçirdiyi obyekt üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti;

4. modul tipli (daşınabilən) qida obyektlərinə münasibətdə onların quraşdırılmasına verilən icazə sənədi, o cümlədən nəqliyyat vasitəsinə dair mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər.